

پنجشنبه ۲ ربیع الآخر سنه ۱۳۳۷ — ایکنجی سنه دوامیه‌سی — ۱۶ کانون ثانی ۱۹۱۹ سنه نومرو ۸۹

# آذربایجان

گوندەلک سیاسی، اجتماعی، ادبی، اقتصادی تورک غزته‌سیدر.

تورک و اسلاملغه مفید مقاله‌لره صحیفه‌لرمز آچیقدر. درج اولنمیان اوراق اعاده ایدیلمز. درج ایدیلن مقاله‌لرك مکافاتی اداره تعیین ایدیور.

اعلان فیاتی: سطری ۳ روبله کراتله گیدن اعلانلار ایچون گذشت ایدیلر.

آبونه شرایطی:

باکو ایچون:
۱ آیلغی ۱۸ روبله
۲ « ۳۲ «
۳ « ۴۵ «

غیر شهرلر ایچون:
۱ آیلغی ۲۰ روبله
۲ « ۳۵ «
۳ « ۵۰ «

محل اداره: باکو، وورو نسوفسکی وغوبرنسکی کوچه‌لرك کنجنده ۴ نومرولی ایوده «آذربایجان» اداره‌سی. تلفون نمره ۶۰–۳۹

تك نسخه‌سی ۷۰ قپك

## اعلان

پنجشنبه گونی ۱۹۱۹ سنه‌سی یانوار آینك ۱۶ سنده گوندوز ساعت ۱۲ده آذربایجان مجلس مبعوثانی اولاجاغی اعلان ایدیلیر.

## تلغراف خبرلری

(رویتر آجنته‌لغندن)

### صلح قونفرانسی

### آمیرقاده تعطیل

### برازیلیاده تعطیل

### بولشه‌ویقلرك غالبیتی

(گورجی تلغراف آجنته‌لغندن)

## غزته‌لردن

### صلح اطرافنده

### قریمده

### بولشه‌ویکلر علیهنه متفقلر عملیاتی

### ارمنی ایشلری

### گورجستانده

### سوچی ناحیه‌سنده

### برلینده

## زاقاتالا حقنده

“Azərbaycan” qəzetinin 89-cu nömrəsinin 1-ci səhifəsi

Cümə axşamı, 16 yanvar 1919-cu il, nömrə 89

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Pəncşənbə, 13 rəbiülaxir sənə 1337. 16 kanuni-sani sənə 1919.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 70 qəpik.**

**Abunə şəraiti: Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rublədir. Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.**

## ELAN

Pəncşənbə [cümə axşamı] günü 1919 sənəsi yanvar ayının 16-da gündüz saat 12-də Azərbaycan Məclisi-Məbusanı olacağı elan edilir.

*T-10*

## TELEQRAF XƏBƏRLƏRİ

*(Royter acentəliyindən)*

### Sülh Konfransı

* Sülh Konfransının birinci iclası yanvarın 24-də açılacaqdır. Bazar günü Beynəlmüttəfiq Şurasının [Müttəfiqlərarası Şuranın] Parisdə vaqe olan [baş tutan] iclasında Foş tərəfindən mütarikənin [atəşkəsin] bərpa edilməsi məsələsi və Sülh Konfransı ilə əlaqədar olan işlər müzakirə edilmişdir.

* Vyanadan xəbər verirlər ki, naməlum bir şəxs Lehistan Baş naziri Paderevskinin otağına daxil olub, güllə ilə yüngül yaralamışdır. Bu münasibətlə bir çox həbslər olmuşdur. Bu işin bolşeviklər tərəfindən olduğu zənn edilir.

### Amerikada tətil

* Amerikada kömür olmadığından, tətil bərdavamdır [davam edir]. Bu tətil, ətrafla münasibatın [əlaqənin] qət olunmasını [kəsilməsini] təhdid edir. Ərzaq məsələsi kəskinləşmişdir. Hökumət məmurları tədbirlər görüb ədalətli məvacib və iş şəraitini düzəltməyi fəhlələrə vəd edirlər.

* Axırıncı xəbərlərə görə, Nyu-Yorkda olan liman fəhlələri Fəhlə İdarəsi tərəfindən işə başlamaq haqqında nəşr edilən dəvətnaməyə qulaq asmamışlardır.

### Braziliyada tətil

Cənubi Amerikada Buenos-Ayres limanında tətil edən fəhlələrə 150 min fəhlə qoşulmuşdur. Tətil edənlər bir neçə ev yandırıb cəbbəxananı aldıqdan sonra, bir çox mühimmati-hərbiyyə [hərbi sursat] ələ gətirmişlərdir. Əsgərlər bütün gecə tətil edənlərlə müharibə etmişlərdir. Bu tətilin almanlar işi olduğu söylənir. Müşahidə edildiyinə görə, Buenos-Ayres anarxistlərin əlindədir. Qətl-qarət davam edir.

### Bolşeviklərin qalibiyyəti

Bremendə Sosialist Cümhuriyyəti elan edilmişdir. Kommunistlər Fəhlə Şurasındakı sosialistlərin yerini zəbt edib, Ebert Hökumətinə teleqraf göndərib istefasını tələb edirlər.

*(Gürcü Teleqraf Acentəliyindən)*

* Türkmənlər arasında böyük nüfuza malik olan və əsgəri dairələrdə məşhur general Drozdovski Türküstanda torpaq iğtişaşı zamanında öldürülmüşdür.

* General Zıkov hal-hazırda özünü Zakaspi Hökuməti tərəfdarı adlandırıb, Türküstanda bolşeviklər əleyhinə müvəffəqiyyətli bir surətdə əməliyyatda bulunmaqdadır.

* Daşkənddə 600 zabit vardır ki, bunlar ingilislərə qoşulmaqdan ötrü ingilislərin Türküstanda bolşeviklər əleyhinə əməliyyata başlamaqlarını səbirsizliklə gözləyirlər. Daşkənd şəhəri bolşeviklər əlində olduğundan zabitlərin halı xeyli fənadır.

* Bolşeviklərin təzyiqatı [təzyiqləri] altında Kazak-Kəndli Hökuməti Tersk nahiyəsindən çıxıb getdiyinə görə, Vladiqafqaz Bələdiyyə rəisi və üzvləri Tersk nahiyəsini tərk edib Petrovsk-Bakı təriqi [yolu] ilə Tiflisə getmişlərdir.

* Brükseldən teleqrafla xəbər verirlər ki, Belçika Sosialistləri Konqresi, sosialistlərin hökumət heyətinə daxil olmasını qeyri-mümkün ədd [hesab] edib Beynəlmüttəfiq [Müttəfiqlərarası] Sosialist Konfransı dəvət edilməsini arzu etmişdir.

## QƏZETƏLƏRDƏN

### Sülh ətrafında

Londondan xəbər verirlər ki, Amerika sülh heyəti-mürəxxəsəsi [nümayəndə heyəti] sualtı qayıqlarının məhv edilməsi təkidatında bulunmağı qərara almışdır. İngiltərə Fəhlə firqəsi nəşr etdiyi manifestdə gizlin siyasətin məhv edilməsini Sülh Konfransından tələb edib, iqtisadi müharibə əleyhinə olduğunu bildirmişdir. Fəhlə firqəsi, Beynəlmiləl Fəhlə Cəmiyyəti təşkilini dəxi tələb etməkdədir.

### Krımda

* Simferepoldan xəbər verirlər ki, bolşeviklərdən qaçmış olan sabiq maliyyə naziri Bark, Krımda Maliyyə naziri təyin edilib, Krım üçün təzə pullar buraxacaqdır. Moskvanın sabiq Bələdiyyə rəisi Rudnev Məsai vəziri [Əmək naziri] təyin edilir.

### Bolşeviklər əleyhinə Müttəfiqlər əməliyyatı

Romaniyada nəşr olunan nim-rəsmi [yarı-rəsmi] liberal qəzetəsi Müttəfiqlərin bolşeviklər əleyhinə olan əməliyyatından bəhslə yazır ki, Müttəfiqlər tərəfindən Ukraynada vücuda gətiriləcək təzə cəbhədə Balkan dövlətlərinin əsgərləri iştirak edəcəklərdir. Qəzetə göstərir ki, Romaniya camaatı müharibənin hər bir zəhmətinə və ləzzətinə Müttəfiqlərlə bərabər şərik olduqları kimi, bolşeviklər əleyhinə Müttəfiqlər tərəfindən açılmış mübarizədə də öz vəzifələrini ifa edəcəklərdir.

### Erməni işləri

Türkiyədə çıxan erməni qəzetələri xəbər verirlər ki, erməni komissiyaları Misirdə və Avropada bir təşkilat düzəltməyə başlamışlardır. Bu təşkilatın qəsdi, erməni mənafeyini böyük dövlətlər qarşısında müdafiə etmək və müharibədən mütəzərrir [zərər çəkmiş] ermənilər nəfinə [xeyrinə] ianə yığmaqdan ibarət olacaqdır.

**Gürcüstanda**

Bu gündən etibarən Batum ilə Tiflis arasında dəmiryol hərəkatı başlanır. Teleqraf müxabirəsi [əlaqəsi] hakəza [habelə] düzəlir. Poçta və gömrükxana dəxi məşğələyə [işə] başlamışdır. Digər dövləti idarələr əvvəlki qulluqçularını cəlb ilə işə başlayırlar. General-qubernator şurasından narazılıq getdikcə artır. Batum Şurası tərəfindən təyin edilən məmurları acarlılar qəbul etməyiblər və deyirlər ki, Acarıstan qulluqçuları acarlılardan təyin edilməlidirlər.

**Soçi nahiyəsində**

"Borba" qəzetəsinin mövsuq [etibarlı] mənbədən aldığı xəbərlərə görə, Soçi nahiyəsində hal-hazırda əhval böylədir:

Gürcü qitəatı [hərbi hissələri] müharibə etmədən və Könüllü ordusunun heç bir təzyiqi olmadan Soçi nahiyəsi sərhədində işğal etdiyi yerdən cənub tərəfə çəkilmişlərdir. Bu çəkilişə gürcü komandanları tərəfindən şüru edilmişdir [başlanmışdır]. Zira onlar inanmışlar ki, nahiyə sərhədinin məsuniyyəti [toxunulmazlığı] xüsusu etilafla [razılaşmayla] təmin edilmişdir. Lakin Könüllü ordu əfradından [əsgərlərindən] bəziləri bu etilafla hesablaşmaq istəməyirlər. Gürcülər çəkildikdən sonra onlar Soçi nahiyəsində irəliləmişlərdir. Ona görə də gürcü qoşunlarının çəkilməsi və Könüllü ordunun irəli hərəkəti dayandırılmışdır.

**Berlində**

Berlindən çəkilmiş olan son teleqramlar xəbər verirlər ki, hökumətin vəziyyəti gündən-günə möhkəmləşir. Hər bir tərəfdən könüllü dəstələri Berlinə əzimət edirlər [yola düşürlər].

* "Orlovski qolos" qəzetəsi xəbər verir: Bu günlərdə Dıbenko nam [adlı] bir nəfər Petroqraddan Oryola qayıtmışdır. Məzkur [adı keçən şəxs] bu yaxınlarda Müttəfiqlər tərəfindən Petroqradın işğal ediləcəyi təhdidi olduğunu bildirmişdir. Finlandiyadan Petroqrad üzərinə bu günlərdə Müttəfiqlərin qırx min nəfərlik ordusu hərəkət edəcəkdir. Revelə və başqa yerlərə Müttəfiqlər qoşunu gəlmişdir. Onlar da Petroqrad üzərinə hərəkət edəcəkdirlər. Bolşeviklərin əlində olan yerlərin həpsində hər gün üsyan qalxır. Qjatskda güclü üsyan əmələ gəlmişdir. Üsyan etmiş olan doqquz min nəfər kəndli, şəhəri işğal edərək bolşevik məmurlarını öldürmüşlər. Ölənlər cümləsinə [arasına] bolşeviklərin sədri Smolyakov da daxildir.

Vağzalı və onun yanında olan mövqifləri [stansiyaları] işğal etdikdən sonra kəndlilər qatarları saxlayıb, qatarla keçən Qırmızı orduları tərk-silah etdirərək bu silahlardan bilistifadə [istifadə etməklə] 82[-ci] verstdə olan mövqelərini möhkəmləşdirmişlərdir. Kəndçilər Məclisi-Müəssisan üçün mübarizə şüarı ilə gedirmişlər. Qjatskda onlar on gün dayanıb sonra Moskvadan iki alay qoşun gəldikdə kəndçilər bunların gəlməsi ilə şəhərin cənub tərəfinə çəkilməyə məcbur olmuşlardır.

Eyni zamanda, Morşanskda kəndçilərlə matroslar inqilab çıxarmışlardır. 24 noyabrda bolşeviklərin iniqad etmiş [baş tutmuş] iclasında Fövqəladə Komissiyanın məlumatından anlaşılır ki, bolşeviklərin əlində olan Rusiya tamamilə bir vulkan

hökmü almışdır. Fövqəladə Komissiyanın ifadatına nəzərən [sözlərinə görə], kəndçilər üsyan edərək şura üzvlərini və digər şura müəssisələri üzvlərini öldürürlər.

Oktyabr və noyabr ayında 48 yerdə üsyan əmələ gəlib, o cümlədən on bir Qırmızı alayda üsyan vaqe olmuşdur. Bu üsyanlarda 840 adam güllələnib, 2300 nəfər də rəhn [girov] sifəti ilə tövqif [həbs] edilmişdir.

* Berlin şəhərinin Baş komandanı yanvarın 9-da Berlin əhalisinə zeyldəki [aşağıdakı] xitabnamə ilə müraciət eyləmişdir:

“Berlin vətəndaşları! Hökumət Berlinin Baş komandanlığını mənə mühəvvəl edərək [tapşıraraq], Berlində asayış bərpasını mənim öhdəmə qoymuşdur. Mənə bu yolda müavinət [köməklik] ediniz. Siz zeyldəki maddələrə əməl etmədikcə, mən öhdəmə verilən vəzifəni ifa edə bilməyəcəyəm:

1) Hökumət qoşunlarının əmrinə hər kəs itaət etməlidir.

2) Küçələrdə gediş-gəliş əksilməlidir, arvad-uşaqlar evdə əyləşməlidir, çünki həmişə müsadimə [toqquşma] gözləndiyi üçün kimsə həyatından əmin ola bilməz.

3) Ancaq hökumətdən icazəsi olan adamlar və qoşun nəfəratı [əsgərlər] silah gəzdirə biləcəkdir.

Hər kəs bu maddələrə xilaf hərəkət edərsə, tövqif [saxlanıldıqdan] və tərksilahdan sonra həbsə atılacaqdır.”

## ZAQATALA HAQQINDA

Rusiya inqilabi-əzimini mütəaqib [Böyük Rusiya inqilabının ardınca], Rusiyada yaşayan hamı xırda millətlər kəndi müqəddəratını kəndi əllərinə almaq fikirlərini faş etdilər. “Xırda millətlərin azadlığı” şüarını özlərinə əsas tutdular. Qonşumuz gürcülər də bu cümlədə olanların ən iləri gedənlərindən idi. Gürcü mətbuatı, təşkil etmək istədikləri Gürcü Cümhuriyyətinin hüdudları xüsusunda yazıb, sərhədlərini, Qafqaz silsileyi-cibalın[ın] [dağ silsiləsinin] Şəkiyə 10-15 çağırım [verst] məsafədə olan Salavat dağını, Salavat keçidini, oradan xətti-müstəqim [düz xətt] üzrə cənuba tərəf Babaratma keçidini, Səbətli kəndini, Səbətlidən şərqə burularaq Çorğat dağlarından aşaraq Acınohur düzünü, Acınohurun cənubundakı təpədən Dəvəbuynuzundan qərbə doğru Qanıq (Alazan) nəhrinin Mübarək girməsindən [keçidindən] göstərirlərdi. Deməк, Zaqatala nahiyəsini bütün özlərinə istəməkdən başqa, Şəki qəzasının da bir hissəsini xəyallarından keçirirlərdi.

Bu yolda, mətbuatla kifayət etməyərək, feilən dəxi iş görməkdə idilər.

Zaqafqaz Komissariyyatı [Komissarlığı] Zaqafqaziya Cümhuriyyətinə təbdil edildiyi [çevrildiyi] vaxt gürcü mətbuatı kiridi. Çünki artıq Gürcüstan, Azərbaycan və Ermənistanları ayırmağa məhəl [yer] qalmamışdı. Lakin yenə gürcü millətçiləri əvvəlki xəyallarından vaz keçmədilər. Bu dəfə müstəqil bir okruq [dairə] halında yaşamaqda olan Zaqatala nahiyəsini Tiflis vilayətinə daxil etməklə xəyallarını sərbəstanə yürütmək istədilər. Bunun üçün Zaqafqaziya Hökuməti tərəfindən gürcü əsilzadələrindən Çavçavadze cənabları zahirən Zaqatala işlərini təftiş etməyə göndərilmişsə də, batinən [daxildə; əslində] gürcü millətçilərinin düsturuləməli

[təlimatı] ilə gəlmişdi.

Çavçavadze cənabları Zaqatala işlərini hər kənddən gələn camaat vəkilləri məclisində öyrənmək və bilmək istəməyib, bizzat [şəxsən] hər kəndə getmək xahişində bulundu. Biz o vaxt İcraiyyə Komitəsinin sədri olduğumuzdan, Çavçavadze kəndlərə bizimlə birlikdə getməli idisə də, nədənsə təkcə getdi. Kəndlərə gedib də camaatlardan nə istəmiş? Demiş ki, kim Tiflisi istəyirsə mənim bu yazdığım qətnaməyə qol qoysun. Halbuki, qətnamədə Zaqatalanın Tiflis vilayətinə qoşulub Tiflis vilayətindən bir qəza məqamında olması bildirilirmiş. Bu işdən agah və xəbərdar olan əhali, Çavçavadzeyə qarşı protesto edib, kənar edilməsinə səbəb oldular.

Nəticədə kredit kəsildi. Tiflisdən gələn tacirlərimizi Zinor yolunda "bədəfkarlar" [cinayətkarlar] soymağa başladılar. Bunların hamısına dözdük, davam gətirdik. Əvvəlkindən daha gözəl, daha nizamlı davranmağa başladıq.

Batum Sülh Məclisi əsnasında siyasət iqtizası [tələbi] olaraq Cənubi Qafqaz millətləri ayrıldılar. Azərbaycan, gürcü və erməni ayrı-ayrı cümhuriyyətlər təşkil etdilər. Bir neçə aydan bəri Zaqatala haqqında heç bir şey yazmayan gürcü mətbuatı bu günlərdə yenə yazmağa başladılar.

Azərbaycan Hökuməti, gürcü hökumətindən Zaqatalaya mütəalliq [aid] bütün övraqi-rəsmiyyə və sənədati-tarixiyyənin [rəsmi və tarixi sənədlərin] verilməsini tələb etməsi və hökumətimizin bu tələbini gürcü hökuməti rədd etməsi bu günlərdə qəzetələrdə yazılmışdı. "Qruziya" qəzetəsi bu münasibətlə əzcümlə [o cümlədən] yazır ki, Zaqatala okruqu, Tiflis vilayətinin ayrılmaz bir qəzası hökmündə imiş və guya Zaqatala, Gürcüstana tarixi, iqtisadi və ictimai cəhətlərdən o qədər möhkəm və mərbut [bağlı] imiş ki, Gürcüstanın bir cüzi-layenfəkidir [ayrılmaz hissəsidir]. "O şəxslər ki, işə etnoqrafi cəhətdən baxırlar, onların mülahizələri birtərəfli olduğundan mühakimələri etibara alınmamalıdır." – deyir və "Biz böyük güzəştdə bulunmuşuq ki, yeni hökumət edən millətlərin hüdudlarını təyin edəcək "həkəm"lər [münsiflər, arbitrlər] işi qət [həll] edincəyə qədər Zaqatalanı kən-di başına tərk etmişik" sözlərini əlavə edir.

Bəli, biz ta inqilabın ibtidasından [başlanğıcından] bu ana qədər Zaqatala haqqında gürcülər tərəfindən yapılmış işi, söylənmiş sözləri, bir neçə millətçi[nin] və millətçi qəzetələrin fikirləri olduğuna həml edirdik [onların boynuna qoyurduq]. Halbuki, Gürcüstan Hökumətinin Zaqatala övraqi-rəsmiyyəsi haqqındakı hökumətimizin tələbini rədd etməsindən və bu münasibətlə "Qruziya" qəzetəsinin kəndi hökumətinin bu rəftarını təqdirindən anlaşılır ki, gürcü hökuməti ilə gürcü mətbuatı da müttəfiqülrəy [həmfikir olaraq] Zaqatalanı bir gürcü vilayəti hesab edirlərmiş.

Nə qədər səthi bir fikir! Əhalisinin 99 faizi islamdan ibarət olan və neçə əsrlərdən bəri tamamən hürr [azad] yaşayan zaqatalalıları "xırda millətlərin azadlığı" şüarı bütün dünya demokratikləri tərəfindən əsas ittixaz [qəbul] edilən bir zamanda, gürcü qonşularımızın ədalətə riayət etməyən böylə bir fikirdə inad göstərmələri olduqca təəccüb ediləcək bir işdir.

“Qruziya” qəzetəsi: “Zaqatala Gürcüstanın ayrılmaz bir cüzü olması tarixlə müsbit [isbatlanmış] bir həqiqətdir.” - deyir. Mən isə: “Zaqatala ilə Gürcüstan həmhüdud olmaqdan başqa tarixi, etnoqrafi və ictimai nöqteyi-nəzərlərdən əsla münasibətləri olmaması, tarixlə müsbit bir həqiqətdir.” - deyirəm və gələcək məqalələrimdə bunu tarixlə də isbat edəcəyəm. Bu gün yalnız “Qruziya” qəzetəsinin bəzi cümlələrini təşrih [şərh] və tənqid etməklə kifayət edəcəyəm.

“Qruziya”: “İşə etnoqrafi cəhətdən baxmaq olmaz.” - deyir. Əcəba 99 faizi islam ədd [hesab] edilən bir yerin bir bu qədər camaatının mövcudiyyətini və mövcudiyyəti ilə bərabər meyil və arzularını nəzərə al[ma]maq hansı demokratik əsasla mümkün olan şeydir ki, “bu cəhətə baxmaq olmaz” deyirlər?

Biz bu sözləri gürcü demokratiyasının ağzından mı eşidirik?

“Qruziya”: “Biz böyük güzəştdə bulunmuşuq ki, yeni hökumət edən millətlərin hüdudlarını təyin edəcək həkəmlər işi qət edincəyə qədər Zaqatalanı kəndi başına tərk etmişik.” - deyir.

Əcəba, biz də Balakən və Qovaqçöl camaatlarının hava və su kimi zəruriyyatından ədd olunan Laqodex[i] rayonunu müvəqqəti olaraq sizə güzəşt etmədikmi? Qovaqçöl keçidindən başlanıb Haçaqaya qəsəbəsindən keçərək Qavırrı çayında nəhayət bulan və qərbi hüdudu təşkil edən xətti-müstəqimlə [düz xətlə] cənubən Qavırrı çay, şərqən və şimalən Qanıq (Alazan) nəhri arasında olan 80-90 min desyatin mürəbbeindən [kvadrat desyatindən] ibarət gözəl məralarımızı [otlaqlarımızı] ancaq sülh və müsalimət [asayiş] xatirinə yenə müvəqqəti olaraq sizə tərk etmədik mi?

İnsafla iltifat ediniz: hangimizinki qiymətli güzəştdir?

Bu gün Rusiyada təşkil edilmiş “Vahid Rusiya” firqəsinin başında duranlardan Milyukov kimilərin sözləri, fikirləri siz gürcü millətinin xoşuna gəlirmi? – sualına “əsla!” cavabını verəcəksiniz, deyilmi?

Həmçinin, sizin də Zaqatalanı Gürcüstana ilhaq etmək [birləşdirmək] xəyalında bulunmanız biz zaqatalalılara daha artıq fəna təsir etdiyini bir kərə düşünməlisiniz. Zira, Zaqatalada yaşayanlar Çingizin əhfadı [nəvələri], Şeyx Şamilin təvabeyidir [təbəələri, vətəndaşlarıdır]. Hər ikisi islam, fövqəladə həssas, hürriyyətlərini müdafiə yolunda əsrlərcə qan tökənlər, şanlı tarixə malik qəhrəman babalarının söz götürməz qəhrəman əhfadıdırlar.

Bunları Azərbaycandan ayırmaq və Gürcüstana ilhaq etmək hirsi [tamahı], zənn etmirəm ki, müvəffəq olsalar da, gürcülərə zərərdən başqa bir mənfəət versin!

*Kiçikxanov*

## İCTİMAİYYAT
## [İCTİMAİ HƏYAT]

Vətənimizdə başlanmış olan bu qədər qiyamətlərdən murad nə olduğunu bu gün hər bir kəsdən xəbər alacaq olsanız, təbii, füqarayi-kasibənin [kasıbların; proletariatın] rifah və səadəti üçün, camaatın əksəriyyətini təşkil edən fəhlə və kəndlinin azad və rifahi-hal ilə yaşaması üçün bu qədər qanlar töküldüyünü iddiaya qalxışacaqdır. Amma məsələyə bir qədər

dərindən baxdıqda, bu nəzəriyyənin bir dərəcə yanlış olduğu meydana çıxacaqdır. Bu nəzəriyyənin yanlış olduğu bildirki Mart hadisəsində bizə isbat edildi. Qırmızı bayraqla meydana atılıb da fəhlələrin səadəti üçün çalışan "sosialistlər" – ki, onların da əksəri ermənilər idi – müsəlman fəhlələrinin başına min cürə bəla və əziyyətlər gətirdilər və guya bu canavarlıqları ilə "müqəddəs" sosializma bayrağını ucaldırlardı.

Şəhərimizdə hal-hazırda bu qədər qəzetələr çıxır. Hər biri bir bayraq altında səhneyi-mətbuata qədəm qoymuş və hamısının da başında "Cahan füqarayi-kasibəsi birləşiniz, zira səadətiniz bu birlikdədir" cümləsi qeyd edilmişdir.

İştə bu şüarla meydana atılan sosialist qəzetələrinin çoxu cahan füqərasını özləri yekdigərindən [bir-birindən] ayırırlar. Müsəlman fəhlələrinə ögey, xristianlara isə doğma nəzəri ilə baxırlar. Ümdə məqsədi füqarayi-kasibənin səadəti üçün əlləşməkdən ibarət olan bu qəzetələrin əksəri həqiqətdə isə yaman milli politika yeridib, sosializmanın müqəddəs şüarına rəxnə [zərər] vurub, yenə fəhlələri, kəndçiləri (əlbəttə müsəlmanlarını) istibdad zənciri altında boğmaq istəyirlər və o təriqlə [o surətlə] Nikolayın vəzifəsini özləri ifa etmək istəyirlər.

Bu qədər müqəddimə ilə bunu demək istəriz ki, kasıba can-can deyən çox, amma pəpə verən yox. Başı qapazlı, üzü tüpürcəkli kimdir? Füqəra! Acından həlak olan, dərmansız qalan kimdir? Füqəra! Deməli, hələ heç bir yerdən bu zavallıların halını islah etmək yolunda kafi bir iqdamat [təşəbbüs] görünməyir. Biləks [əksinə], bu zavallılara hər kəs rəxnə vurur. Müsəlman füqərası ilə əcnəbilərin rəftarı böylə. İndi keçəlim özümüzün füqaramız ilə etdiyimiz rəftara.

Müsəlman kəndçiləri tərəfindən vəkil "göndərilir", əllərində olan vəkalətnamə ilə bez istənilir yaxud başqa ərzaq şeyləri tələb edilir. Vəzarət [Nazirlik] onların halını nəzərə alıb, arzu edilən malları əhvən [münasib] qiymətlə buraxır. Amma nəticədə nə olur? Alınan bezin 10 arşını kəndliyə verilirsə, 100 arşını həman kənd dəllallarının cibinə gedir. Camaat üçün təsis edilən müsəlman kooperativlərinin əksəri mənfəət politikasını yürüdürdülər. Camaat interesindən artıq öz intereslərini gözləyirdilər. Vəlhasil, hər kəs füqarayi-kasibəni əldə bəhanə edərək öz mənfəətinə çalışır, hər kəs onlardan istifadə edir. Hətta böyük neft firmaları belə məəttəəssüf [təəssüf ki], fəhlələri naminə aldıqları manufakturanı öz nəflərinə [öz xeyirlərinə] satmışlardır. Əlbəttə bunlar rəva görülən işlərdən deyildir.

Şəhərimizin kasıb sinfinə gəldikdə, onların halı dəxi də betərdir. Məlumdur ki, şəhərimizin əhalisinin orta hesabla yüzdə 20-si sərvətlidir. Yerdə qalanının yarısı başını bir növ girləyirsə də, digər yarısı böyük bir üsrət [çətinlik] içində yaşayırlar. Zira Mart hadisəsindən bu anadək bunlar bütün ev əşyalarını satıb dolananlardır ki, indi son dərəcə ağır vaxtlar keçirirlər. Bu kimi ağır vaxtlarda bari onlara bir müavinət [kömək] edən cəmiyyətimiz olsaydı, yenə dərd yarı idi. Lakin adi vaxtlarda millət dərdinə qalanlarımız bu kimi ağır zamanda ağızlarına su alıb hərəkətsiz dayanmışlardır. Halbuki millət üçün, füqəra üçün bundan artıq sıxıntılı vaxt və millətpərəstlər üçün işləməyə

bundan artıq müsaid bir zaman olammaz. Böylə bir vaxtda çalışmamaq, böylə bir vaxtda fəqirlərin, acizlərin hallarına soyuq nəzərlə baxmağa heç bir millətpərəstin haqqı yoxdur.

Keçən gün idarəmizə bir nəfər gəlib cəmiyyəti-xeyriyyənin olmadığından şikayətlə deyirdi ki, bugünlərdə yuxarı məhəllədə bir nəfər Şamaxı qaçqını müsəlman vəfat eyləmişdir. Bir nəfər müsəlman arvadı rizayi-Allah [Allah rizası üçün] onu yudurdub qəbristana göndərir. Fəqət qəbristan naziri [müdiri] Molla Haşım bu meyitin kasıblığını nəzərə alaraq dəfn etməz və dəfn üçün haqq istər. Pul olmadığından meyiti qəbristan məscidinə qoydurar. Kim bilə, indi də meyit orada qalmaqdadır. Əlbəttə bu gün cəmiyyəti-xeyriyyəmiz olsaydı, böylə işlər də olmazdı.

Biz zənn ediriz ki, bu vaxta qədər siyasət işləri ilə əlləşməkdə olan şəxslər bir qədər də camaat, füqərayi-kasibə dərdinə qalmalıdır.

Biz zənn ediriz ki, bu vaxta qədər "millət, millət" deyənlərimizin bir bu qədər istirahəti kifayət edər. İndi də olsa onlar biçarə camaatın ehtiyacını rəf etmək [aradan qaldırmaq] üçün cəmiyyəti-xeyriyyəni diriltməlidirlər. Ümidvarıq ki, Məsai Vəzarətmiz [Əmək Nazirliyimiz], Xeyriyyə Vəzarətmiz [Sosial Müdafiə Nazirliyimiz] dəxi bundan sonra kamali-ciddiyətlə işə girişib, füqərayi-kasibəmizin salamatlarına bu ağır günlərdə mədəd yetirmək və əlsiz-ayaqsızlarına da pərəstar olmaqda [xidmət etməkdə] böyük bir fəaliyyət göstərməklə, ümumvətən istirahəti yolunda böyük bir hümmət göstərmiş olarlar.

*Hacı İbrahim Qasımov*

## VÜKƏLA ŞURASINDA
## [NAZİRLƏR KABİNETİNDƏ]

**10 kanuni-sanidəki [yanvardakı] Hökumət qətnamələri**

Rəisi-Vükəlanın [Baş nazirin] 1918-ci sənəsinin 8 dekabr qanunu mövcibincə [qanununa əsasən] hökumət qulluqçularına maaş vermək barəsindəki məruzəsini dinlədikdən sonra qət edilmişdir:

A) 1918-ci sənənin 8 dekabr qanunu, ki hökumət qulluqçularına maaş verməkdən ibarətdir, nazirlər və nazir müavinləri və 2500-dən artıq məvacib alan zəvata [şəxslərə] şamil deyildir.

B) İşbu qanun, 1918-ci sənənin dekabrınadək hökumət qulluqlarına daxil olmuşlara aiddir; əlavə, şəhər ərzaq müəssisələrinin Ərzaq Nəzarətinə keçən xidmətçiləri də buraya daxildir.

C) İşbu qanun, hərbiyyə xidmətçilərinə də şamildir.

**13 kanuni-sani**

Poçt və Teleqraf nazirinin Blajevskini öz dəftərxanasına dəftərxana müdiri təyin etməsi barəsindəki məruzəsindən sonra qət edilmişdir: İşbu təyin qəbul və təsdiq edilir.

Maliyyə nazirinin 1918-ci sənə istiqrazı barəsindəki məruzəsindən sonra qət edilmişdir ki, Maliyyə Nəzarətinə işbu istiqrazın vaxtını 1919-cu sənənin fevralı əvaxirinədək [axırlarınadək] uzadılması tapşırılsın.

Amma Maliyyə nazirinin məhbusları idarə etmək üçün para təxsisi [ayrılması] haqqında məruzəsini dinləyərək qət edilmişdir ki, Azərbaycandakı məhbuslara yüz min rublə təxsis edilsin.

## UNUTMAYALIM

Şəhərimizdə 13-cü xəstəxanada bir neçə ağır surətdə yaralanmış xəstə var. Bunlardan birisi zabitdir: mülazimi-sani [leytenant] Məhəmməd Rüfət. Yerdə qalanları əsgərlərdir.

Bunlar kimlərdir əcəba?

Bakıdan minlərcə verst uzaqda, cənubda evləri, isti ocaqları, rahat bucaqları, sevimli ana-bacıları, körpə çocuqları, özlərinin istirahətləri vardı; vardır da.

Fəqət burada nə gəzirlər?

Neçə il əvvəl bu qeyrətli cavanlar vətən və millətin onları vəzifə başına, müdafiə xidmətinə çağırdığını bilər-bilməz evlərini, yurdlarını, arvad-uşaqlarını, ana və bacılarını ataraq vətən və millət ağuşuna atılmışlardır. Sonra millət hissi, islamlıq qeyrəti bunları diyarımıza atmışdır.

Məzkur [adı çəkilən] cavanlar Azərbaycanda və ümum Qafqaziyada türk-islam qardaşlarının hərc-mərc alovu içində yandıqlarını, hüquqi-milliyyə və mülkiyyələrinin [milli və vətəndaşlıq hüquqlarının] ayaqlar altında əzildiyini eşidib dərhal imdada qoşmuş, köməyə yüyürmüşlərdir.

Bu cavanlar canlarını Azərbaycan mehrabına qurban verib bizləri düşmən zülmündən xilas etməyə gəlmiş, səngərlərdə, qazmalar, yayın isti günəşi, payızın şiddətli yağmuru altında ac-susuz, gecə-gündüz güllə və mərmi altında əzrail ilə əlləşərək "Millətimi xilas etmədən can vermərəm" deyə son nəfəslərinədək vuruşmuş, Azərbaycan türklərini zülüm və sitəmdən qurtarmışlardır.

Lakin özləri ağır surətdə yaralanaraq xəstəxana bucağına atılmışlardır!

Xəstəxanada bunların əhvalı necə keçir? Uzun müddətdən bəri türk əsirlərinin və nəhayət türk xəstələrinin ehtiyacını ödəmək uğrunda çox çalışmış olan Ağaməhəmməd İbrahimzadə əfəndinin verdiyi məlumata görə, xəstəxanada yaralı türklərin halı çox fəna keçir.

Onlara qulaq asan yox, dərdlərinə qalan yox, müsibətlərini yüngülləşdirməyə çalışan yoxdur.

Qürbət ellərdə, uzaq yerlərdə cəlayivətən olmuş [vətənlərindən uzaq düşmüş] bu qəhrəmanların ələminə şərik olan yoxdur. Kimsə bunlara kömək etməyir.

Məzkur yaralıların əhvali-əsəfnakını [kədərli halını] Səhhəti-Ümumiyyə Nəzarətinə [Səhiyyə Nazirliyinə] xəbər vermiş, kömək istəmişlərdir. Nəzarət kömək vəd etmişdir. Lakin bu vaxtadək bir şey görüldüyü yoxmuş.

Bir vaxt "Malımız ilə, canımız ilə xidmət edəriz" deyənlər, bu gün sanki bunları görməyirlər, yaxud köhnə işlər unudulmuşdur.

Xülasə, 12-ci xəstəxanada yatan yaralı zabit və əsgərlər çox üsrət [sıxıntı, çətinlik] çəkirlər. Ümidvarız ki, Səhhəti-Ümumiyyə Nəzarəti bu işə diqqət verər və camaatımız buna laqeyd qalmazlar. Çünki bizim bugünkü laqeydliyimiz böyük qədrnaşünaslıq [qədir-qiymət bilməməzlik], böyük bivəfalıqdır.

Yuxarıda adı zikr olunan Ağaməhəmməd İbrahimzadə əfəndi vasitəsi ilə məzkur yaralılar nəfinə [xeyrinə] İsa Bəy Aşurbəyov 100, Ağaməhəmməd Dadaşov 100, Həsən Dadaşov 110, Ağaməhəmməd İbrahimzadə 50, Abbasqulu Kazımzadə 25, Qulamrza Şərifov 25, İsmayıl Rəhimov 50, Əliheydər Şərifov 20 manat

olmaq üzrə 470 manat verilmişdir.

Əlbəttə qəhrəmanlara kömək edib ianə yığmaq millət əfradının [fərdlərinin] qədrdanlıq [qədirbilənlik] ibraz etmələrini [göstərmələrini] isbat edəcəkdir. Ona görə, qədrdanlığını göstərmək istəyən olsa, idarəmizdə qeyd dəftəri açıqdır.

Türklərin dərdinə qalıb çox çalışmış olan Ağaməhəmməd İbrahimzadə əfəndiyə çalışması və bu xüsusda idarəmizə bildirməsindən naşi [ötrü] ayrıca təşəkkür ediriz.

## BAKI XƏBƏRLƏRİ

* İvan İvest nam [adlı] bir zat [şəxs], Ticarət və Sənaye Nəzarətinə müraciətən [müraciət edərək] Gürcüstan ilə Azərbaycan miyanında [arasında] əqd edilən [bağlanan] ticarət müqavilənaməsinə istinadən rica etmişdir ki, Ənzəli və yaxud başqa yerdən Tiflisə aparmaq niyyəti ilə 3000 pud səbzə, 1000 pud xüşkbar [quru meyvə] almaq üçün izin verilsin.

* Xorazan Neft Cəmiyyəti, Ticarət və Sənaye Nəzarətinə müraciətən rica etmişdir ki, Dövlət Bankında cəmiyyətin namına [adına] hesabati-cariyyə [cari hesab] səhifələri açılsın.

* Xırda Neftçilər Cəmiyyəti, Ticarət və Sənaye Nəzarətinə işbu məlumatı pişnihad [təqdim] etmişdir:

1917[-inci] sənədə Xırda Neftçilər tərəfindən çıxarılan neftin miqdarı Balaxanı dairəsində 14 milyon pud, Şubanı dairəsində 7 milyon pud.

1918[-inci] sənədə isə Mart hadisatınadək neft ticarət və sənaye istehsalatı qayda üzrə getmişdir. Fəqət sonra bilmərrə kəsilib fəaliyyətsiz qalmışdır. Xırda neftçiliklə bu vaxtadək 20 min nəfər adam imrari-həyat edirmiş [dolanırmış]. İş zamanı işləyən fəhlələrin miqdarı 8 minədək olmuşdur.

* Azov-Don Ticarət Bankı tərəfindən sərmayədar olan bir dəstə məşhur tacir, Ərzaq Nəzarətinə rücu [müraciət] edərək Azərbaycan üçün İrandan külli miqdarda ehtiyacati-zəruri gətirmək işini öhdələrinə almalarını izhar etmişdir [bildirmişdir]. Lakin ümdə şərt olmaq üzrə, bunu göstərmişlər ki, gərək təhvil verilən malların qiyməti İran pulu verilsin. Bu təklifi Nəzarət, ümumi surətdə qəbul edib də, Maliyyə nazirinə müraciətlə xahiş edir ki, həmin ticarət müahidəsi [müqaviləsi] üçün indidən 3 milyon tümən İran pulu hazırlansın.

* Məşhur çay satan “Vısotski” idarəsinin nümayəndəsi ilə Ərzaq Nəzarəti arasında böyük partiya çay gətirmək üçün müqavilənamə bağlanmaqdadır. Hələlikdə Ərzaq Nəzarəti 40 min pud çay gətirməyi sifariş etmişdir.

* Gəncə qəzasının ərzaq vəkili, nazirə teleqrafla xəbər vermiş ki, Gəncə dəmiryol mövqifində [stansiyasında] vaqon olmadığı üçün bir çox ərzaq yükləri yığılıb qalıbdır. Bu teleqraf Türüq və Məabir vəzirinə [Nəqliyyat və Rabitə nazirinə] xəbər verilib, xahiş olunur ki, Gəncə vəkilinə lazımi miqdarda vaqon verilmək üçün təcili tədbirlər ittixaz edilsin [tədbirlər görülsün].

* Srağagün əsgərlikdən qaçan cavanlardan bir neçəsini tutub Bakı qalabəyisinə [komendantına] göndərmişdilər. Çün həman gündə əsgərləri göndərmək üçün məxsusi vaqon yox idi və həman əsgər-

ləri saxlamaq üçün də qalabəyi divanxanasında ayrıca məxsusi oda [otaq] yox idi, qalabəyinin qətnaməsinə görə, həman əsgərlər müvəqqət olaraq birinci nömrə həbsxanaya göndərilmişlərdir.

* Möhtəkirlərlə mübarizə etmək barəsində Ərzaq Nəzarəti yavaş-yavaş lazımi tədabir ittixaz etməyə [tədbirlər görməyə] başlamışdır. Məlum olduğu üzrə, bəzi tacirlər Bakıya ərzaq yükləri gətirib, çox vaxt yüklərini dəmiryol skladlarına [anbarlarına] yığıb oralarda saxlayırlar ki, bazarlarda mal az olub, qiymətlər artdığı zaman bazara çıxardıb baha qiymətlərə satsınlar. Ərzaq naziri bu barədə Türüq və Məabir [Nəqliyyat və Rabitə] nazirinə müfəssəl bir məktub yazıb xahiş edir ki, bundan sonra dəmiryol skladlarında ərzaq yüklərini saxlamaq üçün çox qısa bir vaxt təyin edilsin. O vaxt keçəndən sonra hərgah mal sahibi gəlib malını çıxartmasa, həman mal gərək zəbt edilib Ərzaq Nəzarəti tərəfindən təyin olunan qiymətlə Nəzarət hesabına alınsın.

**"Kooperatsiya" 3 milyondan izafə [artıq] borcunu vermək istəməyir**

Bələdiyyə İdarəsi nəzdindəki sabiq Ərzaq şöbəsinə külli miqdarda borcu olanlardan birisi də "Kooperatsiya" idarəsidir. Bu idarənin borcu 3.013.817 manatdır. Bir neçə gün bundan əvvəl Ərzaq şöbəsi "Kooperatsiya"ya məktub yazaraq 10 ayın ərzində öz borcunu verib qurtarmağı təklif etmiş imiş. Lakin bunun cavabında "Kooperatsiya" idarəsi demiş ki, çün bu axırkı hadisələrdə "Kooperatsiya"nın skladlarını qarət etmişlər və qarət edilən malların zərərləri də Müttəfiq komanda tərəfindən hələ verilməmişdir, buna görə "Kooperatsiya" idarəsi öz borcunu verməkdən acizdir.

"Kooperatsiya"nın bu cavabına cavab olaraq srağagün Ərzaq naziri bir məktub yazıb idarəyə xəbər etmiş ki, yuxarıda miqdarı göstərilmiş borc gərək əlbəttə verilsin, istər Müttəfiqlər komandanı zərərləri versinlər və ya ki verməsinlər, heç bir təfavütü yoxdur. Lakin borcu vermək üçün ancaq 12 ay vaxt vermək olar. Bu zamanda hər ayda müəyyən miqdar gərək həman borcun hesabından Nəzarətə verilsin.

* Bu axır günlərdə axşam qaranlığı düşən kimi şəhərin bəzi hissələrində, baxüsus [xüsusilə] 6, 7, 8 və 9-cu uçastokların məhəllələrində mütəəddid [çox sayıda] tüfəng və tapança atışmaları vaqe olur. Şübhə yox ki, bu atışmaları açan bəzi müfəttin [fitnəkar] və xuliqanlardır ki, şəhərdə həyəcan salmaq və əhalini nigaran qoymaq üçün bu hərəkətlərə rücu [müraciət] edirlər. Bu atışmalar, baxüsus əhalisi qarışıq millətlərdən ibarət olan məhəllələrin əhalisini çox artıq qorxu və nigarançılığa salır. Buna görə də yaxşı olardı ki, polis nəfəratı [nəfərləri] böylə bisəbəb atəş açanları tutub, şiddətli cəzalara düçar edib və bu barədə bir xüsusi əmrnamə də nəşr edəydi, vəilla [yoxsa] əhalinin istirahəti bu axır günlərdə tamamilə xələldar olmuşdur [pozulmuşdur].

**Bələdiyyə İdarəsində**

* Bələdiyyə İdarəsi, Daxiliyyə Nəzarətinə bir ərzihal verib, Bələdiyyə mülkü həyətindəki bir fligelin [əlavə tikilinin] Azərbaycan ordusuna mənsub bir qoşun

qitəsi [hissəsi] tərəfindən tutulmasını xəbər vermişdir. Həman fligel şəhər kitabxanasına verilmişdi. Bələdiyyə mühəndisi qoşun naçalnikinə müraciətən oranın boşaldılmasını təklif edərsə də, rədd cavabı almışdır. Əlavə olaraq, evə məxsus meblo [mebel] da qoşun əfradı [əsgərlər] tərəfindən sındırılıb xarab edilmişdir. Bununla Bələdiyyə idarəsi onun təcili surətdə boşa[l]dılması barəsində lazımi binagüzarlıqda bulunmağı [sərəncam verməyi] Daxiliyyə Nəzarətindən istida [xahiş] etmişdir.

* Bələdiyyə idarəsi Səhhəti-Ümumiyyə Nəzarətinin [Səhiyyə Nazirliyinin] Səhiyyə və statistika şöbəsinə bir böylə məlumat vermişdir. Bakı şəhərinin əhalisinin miqdarı bərvəchi-ati [aşağıdakı kimi] olmuşdur:

1916-cı sənədə 225490 nəfər, 1917-ci sənədə 229638 nəfər, 1918-ci sənədə 233864 nəfər. 1918-ci sənə üçün dini və milli statistika tərtib edilməmişdir.

1917-ci sənənin 22 oktyabrınadək statistikaya daxil olmuş nüfusu [əhalisi] böylə təqsim edilirdi [bölünürdü]: rus 77123 nəfər, erməni 52184 nəfər, gürcü 4073 nəfər, nemes 2777 nəfər, yəhudi 12427, müsəlman 67190 nəfər, Kazan müsəlmanları 1203, iranlı 11904 nəfər, başqa Qafqaziya millətlərindən 299 nəfər, ləzgi 700 nəfər və başqa millətlərdən 2315 nəfər, cümlətanı 234177 nəfər. 1919-cu sənənin 1 yanvarınadək şəhərdəki nüfusun miqdarı 235996 nəfər zükur və ünasdır [kişi və qadındır].

**Təzə qəzetələr**

Müsəlman sosialistləri tərəfindən bu günlərdə rus dilində “Mayak Azərbaycan” adlı gündəlik böyük bir qəzetə nəşr edilməyə başlayacaqdır. Bu qəzetədə Əhməd Cövdət Pepinov, Ağamalıoğlu, A. A. Şərifov, A. Atamalıbəyov, Camo Hacınski, Quryev və rus yazıçılarından Pyotr Sibirtsev iştirak edəcəklərdir. Məzkur [adı çəkilən] qəzetə fəhlə, kəndçi və ümum [bütün] zəhmətkeşlərin mənafeyini müdafiə və mühafizə edəcəkdir.

* Azərbaycan Müsəlman İctimaiyuni-İnqilabiyyun firqəsi [Sosialist İnqilabçılar partiyası] tərəfindən bu günlərdə “Kəndçi və fəhlə” adında türk lisanında həftəlik bir qəzetə nəşr ediləcəkdir.

**Bolşeviklərlə mübarizə**

Bakı əsgəri dairələrində dövran edən şayiata görə, hal-hazırda Bakıda olan general Prjevalski, Qafqaziyada olan rus əsgərləri baş komandanı təyin edilmişdir. Bu münasibətlə bu yaxınlarda bolşeviklər əleyhinə işləməkdən ötrü tədarükat başlanacaqdır. Birinci növbədə zabitlərin dəvət edilmələri gözlənir.

**Müsəlman İctimaiyyuni-İnqilabiyyun firqəsinin iclası**

Sabah, cümə günü yanvarın 16-sı, Parlaman mülkü “Hümmət” firqəsi odasında saat 4-də Azərbaycan Müsəlman İctimaiyyuni-İnqilabiyyun firqəsi [Sosialist İnqilabçılar partiyası] komitəsinin iclası təyin edilir. Balaxanı firqəsinin üzvləri dəvət olunurlar.

**Müsəlman mütəallimləri [tələbələri] iclası**

Cümə günü kanuni-saninin [yanvarın] 17-də Bakı Birinci Realnı məktəbinin bi-

nasında saat 10-da Bakı Müsəlman müəllimlərinin ümumi iclası vaqe olacaqdır. İclas ikinci dəfə təyin edildiyindən, nə qədər üzv gəlsə də qanuni hesab olunacaqdır.

**Hadisat [Hadisələr]**

* Binəqədidə Seyid Hüseynov mədəninin makinaçısı Abdulla Quliyev idarəmizə müraciətən işbu məlumatı vermişdir: Binəqədi polis müfəttişliyi məmurundan Məhəmməd nam [adlı] birisi yanvarın 8-i gecə saat 2-də həman Abdullanın 196 nömrəli mədəndəki evinə gəlib, özünü döydükdən sonra 600 manatadək nəğd pulunu və qardaşı Yədullanın arvadını zorla götürüb aparmışdır. Abdullanın döyülməsi barəsində doktor vəsiqələr vermişdir ki, idarəmizə pişnihad [təqdim] edilmişdir.

* İkinci uçastok komitəsinin üç bürosunda:

1- Bolşoy Krepostnoy, nömrə 47;

2- Voyenni küçədə, nömrə 5;

3- Sadovı küçədə, nömrə 34

dördüncü dəfə olaraq adam başına iki girvənkə düyü verilir. İndiyə qədər düyü almamış olan ev komitələri, gəlib yuxarıdakı bürolardan düyülərini ala bilərlər.

* Ayın 13-cü gecəsində postda dayanmış qaradavoy görür ki, Tarqovı küçədə olan aksioner cəmiyyəti "Məftul"un skladından [anbarından] bir arabaya üç min manatlıq məftul [məftil] yığıb aparırlar. Arabaçını tutandan sonra məlum olub ki, arabaçı Sarkis Ayrapetovdur və məftul oğurlayanlar da Biçeraxov dəstəsinin saldatlarıdır. Həman oğruların birisi tutulub, məlum olub ki, Qriqori Manukovdur. Oğru da həbsə alınıbdır.

* Genə həman gecə Birjevoy küçə ilə keçən Məşədi Rza Məşədi Hüseyn oğlunun üstünə düşüb bir [neçə] nəfər ermәni 600 manat pulunu almışlar. Qarətçilərin birisi tutulub məlum olub ki, Qaik Musaelovdur. Qarətçi həbsə alınıbdır.

* İki gecə bundan əqdəm [qabaq] axşam saat 7 radələrində, yeddi nəfər tapança ilə müsəlləh [silahlanmış] naməlum şəxslər Qubernski və Vorontsov küçələrin küncündə 14 nömrəli evdə İran rəiyyəti Ağa Mirmahmud Məhəmmədovun evinin üstünə tökülüb, əvvəlcə telefonun məftillərini kəsib, sonra da tapança hədəsi ilə pulların yerini göstərməyi tələb ediblər. Axırda həman evdə olan Məşədi Məcid Hacı Məhəmmədrəhim oğlundan, Kərbəlayi Hacı Salahovdan 40 min manat nəğd pul, qızıl saat və sair şeyləri güclə alıb qaçıblar. Tədabiri-lazimə polis tərəfindən ittixaz edilmişdir. [Lazımi tədbirlər polis tərəfindən görülmüşdür.]

* Ayın 14-cü gecəsində Azərbaycan dəmiryolunun ərzaq skladlarından [anbarlarından] 32 min manatlıq ərzaq və sair şeylər oğurlanmışdır.

## ƏRZAQ İŞLƏRİ

- İranın Gilan telefon xəttinin müdiri Həbibulla Kərimova Ərzaq Nəzarəti tərəfindən icazə verilmişdir ki, İrandan 300 put düyü gətirib Azərbaycan təriqi [yolu] ilə Gürcüstana aparsın.

- Gəncə əhli İsgəndər Abbasova Ərzaq Nəzarəti tərəfindən icazə verilmişdir ki, Bakıdan Gürcüstana 1500 put neft aparıb, əvəzində Gürcüstandan Azərbaycana 1000 put qənd gətirsin.

## AZƏRBAYCANDA

**Cəbrayıl uyezdindən teleqraf**

Qubernator müavini, Xariciyyə nazirinə böylə bir teleqraf göndərmişdir:

"Hal-hazırda Cəbrayıl uyezdindəyəm. Zəngəzur uyezdni naçalnikindən böylə bir teleqraf aldım:

Dördüncü uçastokda olan Razdərə kəndinin ermənilər tərəfindən dağıdılması haqqında göndərdiyim teleqrafa əlavə olaraq, Müttəfiq komandanına təqdim etməkdən ötrü xəbər verirəm ki, Zəngəzurda ermənilərlə müsəlmanlar arasında adi həyat bərpa etməkdən ötrü mayor Gibbon başda olmaq üzrə, İngiltərə heyətinin dəvətinə görə camaat vəkilləri yanvarın 7-də üçüncü uçastokda Teymur Müskənli kəndinə cəm olduqları zaman Ucan camaatının kəndxudası süvari olub, Andranik qoşunlarının böyük bir dəstə[si]nin Fərcan kəndinə hücum edib bu saat orada atışma davam etdiyini xəbər vermişdir. Bunu da əlavə edirəm ki, İngiltərə heyəti bura varid olandan [gələndən] indiyə qədər 30-dan ziyadə müsəlman kəndi ermənilər tərəfindən dağıdılıb, əhalisinin çox hissəsi öldürülmüşdür. İngiltərə heyəti təftişat olacağını vəd edib ermənilərin qabağını almaqdan ötrü heç bir tədbir görməyir.

## TEATRO VƏ MUSİQİ

## II

"Arşın mal alan"da Soltan bəyin rolunu çox vaxt Ələkbər Hüseynzadə, bəzi vaxt dəxi Mirzəağa Əliyev cənabları oynarlar. Bu səfər Mirzəağa oynadı. Bunu deməliyəm ki, bu rolu nə Ələkbər düz oynayır, nə də Mirzəağa. Görünür ki, Soltan bəyin nə kimi bir "tip" olduğuna nə o diqqət yetiribdir, nə də bu. Bu xüsusda mənə etirazlar edib deyə bilərsiniz sən "küfr" danışırsan, "səbb" eyləyirsən [söyüş söyürsən]; "əstəğfirüllah" eylə, "tövbə" qıl! Lakin, Gülçöhrə demişkən: sözüm sözdür; düz oynamayırlar. Bəs camaatın alqışları və tamaşaçıların gülmələri, şadlığı, teatro həvəslilərinin aldığı həzz və zövq, xalqın vəcdə gəlməyi?

Bunlar hamısı doğrudur. Mən özüm də Mirzəağa ilə Ələkbər Hüseynzadə cənablarının səhnə oyunlarından, hələ sair tamaşaçılardan da artıq həzz aparıb, zövq alıb, canü dildən gülürəm və özüm də şad oluram. Ancaq nədən? Məzhəkəlikdə, əksərən duzlu hərəkətlərində, xudadadi [Allah vergisi] bir istedad sahibi olmalarından!

Bunlarda; sözləri danışanda, söz danışarkən sifətlərində əmələ gələn mimika hərəkətlərində və bu hərəkətlərin dedikcə təbii olmaqla bərabər, ağızdakı sözün məzmununa tamamilə müvafiq gəlməsində, danışılan kəlamın kəlmeyi-məğzisini [məğzini, əsasını təşkil edən sözünü] ədayi-məxsusi [xüsusi bir tərz] ilə ifadə etmələrində yalnız özlərinə məxsus bir "duzluluq" var ki, hər artistdə ola bilməz. Bu isə əsl xudadadilikdir, Allah vergisidir və bizi də tamaşaçılarla bir yerdə şövq və zövqə gətirən, güldürən, fərəhləndirən budur, nəinki Soltan bəyin rolunun düz oynanılması.

Soltan bəyin rolunun nəyini düz oynamayırlar?

"Tip"ini.

Soltan bəy, qədim tərbiyə almış, "patriarxi" bir tipdir ki, lovğalıq, özünü sındırmamaq, ehtiram sevməklik, itaət tələb etməklik, "ağır olub batman gəlməklik", bığları yağa batmamaq üçün xanla plov yeməməklik dərəcəsində xudpəsəndlik [eqoistlik], bəylərə bir o qədər etina etməyən incinar-mincinarı [mühəndisi], doktor-moktoru, vəkil-məkili sevməməzlik, bəylərə həmişə etina, hörmət və təzim edən tacirləri dost tutmaqlıq Soltan bəyin əsas xasiyyət və məziyyətlərindəndir. İrişə-irişə gülmək, məhz pərəstar [qulluqçu] tapmaq və "savab" olmaq niyyətilə almaq istədiyi bir "dəllal-məllal" arvadına "Sənə qurban olum" demək, namus yerində hesab etdiyi papağını başından götürüb yerə vurmaq və sairə və sairə "əzginiş" [düşük] hərəkətlər çıxartmaq əsla və əsla Soltan bəy kimi birinə yaraşmaz, vəilla [yoxsa] "tip" itər, azar; bəlkə başqa bir tip əmələ gələr, amma müsənnifin [müəllifin] təsvir etmiş olduğu "bəy" meydana çıxmaz.

Müsənnifin təsvir etmiş olduğu "tip"i səhnədə eynilə yaratmaq üstadlığına ümum artistlərimizin diqqətini cəlb edib, vəzifeyi-nəfasətkaranələrinin [sənətkarlıq borclarının] ən böyüyü bu olduğunu yadlarına salıram.

Mirzəağa əfəndidə – Əliəkbərdə də olan kimi – xüdadadi istedaddan başqa artistliyin birinci şərtlərindən olan "ağız" dəxi vardır. Kamil bir diksiyaya malik olduğuna görə, danışdığı sözün birisi də itib batmayır. Əlavə, danışıq səsinin növbəti də layiqi olan yerindədir. Mirzəağa özünə bir az da diqqət yetirsə, universal bir artsit ola bilər ki, nəinki tək müsəlman publikasını, bəlkə başqa millətlərin də teatro və tamaşaçılarının calibi-zövqü ola bilər [zövqünü cəlb edə bilər]. Odur ki, onun oyununa biz də bir bu qədər diqqət yetirib, çox sözlər söylədik. Hələ ki, kifayətdir.

*"Mizrab"*

* * *

Cümə günü yanvarın 17-də gündüz saat 1-in yarısında Hacıbəyov Qardaşları tərəfindən Hökumət Teatrosunda "Pəri cadu" pyesası mövqeyi-tamaşaya qoyulacaqdır. Biletlər gündüz teatrosu olmaq üzrə ucuz qiymətlə teatrın kassasında satılmaqdadır.

## İZHARİ-TƏŞƏKKÜR

Azərbaycan Məclisi-Məbusan üzvü möhtərəm Həmdulla əfəndi Əfəndiyev cənablarına Bakı erməni yeparxialni naçalniki [yeparxiya idarəsi sədri] yepiskop Baqrat tərəfindən göndərilən təşəkkürnamənin eyni:

*"Möhtərəm Həmdulla əfəndi!*

*Quba mahalında vaqe Gilvar adlı erməni kəndinin əhalisi və o kəndin keşişi mənə məktubən bəyan edirlər ki, siz öz bəradəriniz [qardaşınız] və əqvamınız [qohumlarınız] ilə Gilvar ermənilərini hər dürlü təsadüfi balalardan xilas edib, daima onlara xeyirxah olmusunuz. Neçə gün bundan əvvəl həman erməni kəndi Gilvardan mənim yanıma bir heyət gəlib, bizzat [şəxsən] sizin insaniyyətpərvər xidəmatınızı [xidmətlərinizi] təsdiq etdilər.*

*Binaileyh [ona görə], Bakı erməni yeparxiya naçalniki olmaq həsəbi [səbəbi] ilə özümə mənəvi vəzifə bilirəm, möhtərəm Həmdulla əfəndi, sizin Gilvar əhalisi-*

*nə olan böylə rəftarınıza qarşı səmimi təşəkkürümü izhar edim.*

*Cənabi-Haqq sizə və sizin ailənizə müin [kömək] olsun.*

*Kamali-ehtiram ilə Bakı erməni yeparxiyalni naçalniki Baqrat"*

### İDARƏYƏ MƏKTUB

Müdiri möhtərəm!

Təvəqqeyi-acizanə edirəm ki, bu bir neçə kəlmə sözlərimə qəzetənizin bir guşəsində yer verəsiniz.

Neft mədənlərində yaşayan, 25 illər zəhmət çəkmiş buruq ustalarımızın halı 25-30 ilin zamanında çox zəhmətlərlə, tənəli sözlərə təhəmmül etməklə [qatlaşmaqla] keçib, genə öz sənətlərinin üstündə möhkəm dayanıblar. Bununla belə, əcnəbilər bizim sənətkarlarımızı bir bəhanə ilə üstünə bir ad qoyub ki, sən təqsirkarsan, öz işlərindən, öz sənətlərindən kənar edirlər. Şübhəsiz ki, onlar öz həmcinslərini bizim ustalarımızın yerində sənətə qoymaq istəyirlər. Çıxarılmış sənətkarlarımız isə halları, günləri pis keçib, dallarında yük[l]ə hammal [hambal] əvəzində küçələrdə gəzməklə və bir gündə 15 verst piyada yol gedib şey-mey götürüb satmaqla özlərini itirib böylə zəhmətlə 8-9 nəfər külfət saxlayırlar. Amma əcnəbilər özləri qulluq etməyə kifayət eyləməyib öz arvadlarını və çocuqlarını kantorlarda işə qoyub, onlardan ötrü hər birinə beş yüz, altı yüzlərlə məvacib alıb, neçə qat bizlərdən yaxşı güzəran edirlər. Amma bizim uşaqlarımız sərgərdan, evlərdə, küçələrdə sənətsiz dolaşırlar və heç yerlərdə və karxanalarda və idarələrdə və mədənlərdə onlara yer verməyirlər.

Mantaşevlər, Mirzəyevlər, Trikiyev, Aramazlar, Kaspiyskilər və bunlardan başqa mülkədarlar, sabiq hökumətin qüvveyi-cəbriyyəsi [zor gücü] ilə və tapança gücü və pul gücü ilə yerlərimizi, atababadan qalma xalis mülklərimizi əlimizdən alıb özləri üçün mülk qərar veriblər. Özümüzü də fəhləlik və qarovulçuluğa da qəbul etməyirlər. İndi biz nə etməliyik? Əkin torpağımız yox, axar sularımız yox, mənfəət gətirən bağımız yox. Çox çətinliklə halımız keçir. İndi şükür olsun Allaha, çox illərlə islamın baydağını gördük. İndi bizim pişrovlarımızdan [başçılarımızdan] rica olunur, bizim sənətkarlarımıza, uşaqlarımıza zavodlarda, mədənlərdə, masterskoylarda [emalatxanalarda] yer versinlər və bu dərdlərimizə çarə etsinlər.

*Əmirhacıyanlı buravoy master [qazma ustası] Sumbatəli Fətəliyev*

### İDARƏDƏN CAVABLAR

**Sami** əfəndiyə: "Əsrimizin siyasətindən bir nəbzə"niz zəifdir. Zatınızdan ciddi məqalələr gözləyirik.

**Tamaşaçı** əfəndiyə: Ehtiyat və əndişəniz əbəsdir. Şükür olsun, bu gün camaatımızın gözü artıq o qədər açıqdır ki, hər bir əfsanəyə qulaq verməzlər.

**Rai** əfəndiyə: "Qarabağ" şeirinizdə zəif yerlər vardır. Şeiriniz bundan gözəlliyini itirir. Zəif yerlərini bizzat [şəxsən] özünüzə göstərmək istərdik.

**Bir Çəmbərəkəndli** əfəndiyə: Şikayə-

tinizi öz imzanızla yazmağa razı-sınızsa bizə bildiriniz. Ya ki bu barədə bir balaca söhbət üçün idarəmizə təşrif gəti-rin.

**Mikayıl Rəfizadə** əfəndiyə. "Həyat"ı-nız çox gözəldir, lakin sosialist qəzetələrinə yaxışar yazılardır. Razı olsanız "Al bayraq" rəfiqimizə ötürərik.

Müqtədir şairlərimizdən **Əbdülsəlimzadə Məhəmməd Hadi əfəndinin "İnsanların tarixi faciələri" yaxud "Əlvahi-intibah"** adlı mənzum əsərinin ikinci cüzü çapdan çıxıb mövqeyi-füruşa [satışa] qoyulmuşdur. Kitabça gözəl və qalın kağız üzərində təb' [çap] edilmiş, fiatı [qiyməti] 2 manatdır. Turan mətbəəsində, Parapetdə "Məktəb" mağazasında və Bazar caddəsində Paşa Qasımzadənin mağazasında.

*b. 4 – 3*

**Petroqraddan gəlmiş diş həkimi**
**M. B. Şternin**

Naxoşları qəbul edir səhər saat 9-dan 2-yə kimi və axşam 4-dən 7-yə kimi. Dişlərə və ağza müalicə edir, qızıl və kauçuk üzərində süni dişlər və qızıl qapaqlar qayırır. Dişləri ağrısız kənar edir. Ünvan: Vorontsovski caddədə Sarkisovanın 22 nömrəli evində, Bakı İstiqraz Cəmiyyəti ilə bir cərgədə.

*2642*

**Arvad diş həkimi**
**M. S. İdaşkina**

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

*2629*

**Doktor Rza bəy Sultanov**
**Paris Darülfünunundan**

Qəbul edir daxiliyyə və əsəbi xəstələri hər gün səhər saat 9-1-ədək, axşam saat 4-7-yədək. Telefon 57-40. Adres: Persidski küçədə 22 nömrəli evdə, Gimnaziçeski küçənin küncndə.

*2603*

**Doktor Leonid Ter-Avanesov**

Daxili naxoşları və naxoş çocuqları qəbul etməyəbaşlamışdır. Hər gün səhər saat 8 yarımdan 9 yarıma kimi; 12-dən 2-yə kimi; axşam 4-dən 6-ya kimi. Ünvan: Merkuryevski küçədə 5 nömrəli evdə (Doktor Parsadanovun azarxanasında). Telefon 41-18.

*2627*

**Doktor Əliheydər Allahverdiyev**

Daxili naxoşları qəbul edir:

Səhər saat 8-dən 10-adək; axşam saat 4-dən 6-yadək. İçəri şəhərdə Malı Krepostnovı küçədə 8 nömrəli evdə. Telefon nömrəsi 36-91. Малая-Крѣпостная ул. д. № 8. Телефон № 36-91.

*2603*

**Doktor Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Həkim S. L. Şklovskaya**

Mamalıq və daxili ünas əmrazını [qadın xəstəliklərini] qəbul edir. Naxoşlar qəbul olunur: səhər saat 9-dan birə və 5-dən 7-yə qədər. Ünvan: Aziatski küçədə nömrə 153, Bolşoy Marskoy və Krasnovodski küçələrin arasında. Telefon: 50-67.

*209*

Bakı Obşestvenni Sobraniyasının [Bakı İctimai Yığıncağının] Müvəkkilər Şurası, Obşestvenni Sobraniya işlərini idarə etmək arzu-

sunda olan zəvatdan [şəxslərdən] bu barədə Müvəkkillər Şurasına ərizə vermək təklif olunur. Ərizələr Sobraniya kantorasında bu ilin kanuni-sani [yanvar] 20-sinə kimi qəbul olunur.

*T-9*

**Bakı külli [topdan] alış-veriş cəmiyyəti "Baqqallar İttifaqı"**

İdarəsi üzvlərini cümə günü kanunisaninin 17-sində səhər saat 11-də Lalayevin pasajında, ittifaqın idarəsində vaqe olacaq ümumi iclasa dəvət edir.

Baxılacaq məsələlər:

1) İllik hesabatın müzakirəsi;
2) Mənafenin təqsimi [gəlirin paylanması];
3) 1919-cu il smetasının təsdiqi;
4) Məramnamənin təğyiri [dəyişdirilməsi];
5) İdarə və şura seçkisi;
6) Cari məsələlər.

Qeyd: Saat 11-də iclas qanuna müvafiq olmazsa, ikinci ümumi iclas o gün həman idarədə saat 1-də açılacaqdır.

*İdarə müdiri: Həsənov*
*3647*

**Doktor Larionovun qadın və cərrahiyyə azarxanası**

(Bazarnı küçədə Krasilnikovun evində, telefon nömrəsi 10-43) Əbədi naxoşları həmişə vaxt, müvəqqəti naxoşları isə saat 9-dan 4-ə kimi qəbul etməyə başlamışdır. Azarxananın məşvərətçiləri: Qadın naxoşluqlarına doktor V. Q. Mitrofanov; cərrahiyyə: doktor A. İ. Okinşeviç.

*8648*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir bəy***

## QEYD VƏ ŞƏRHLƏR

**Teleqraf xəbərləri**

səh. 259. "Bremendə Sosialist Cümhuriyyəti elan edilmişdir.": Almaniyanın Bremen və Bremerhafen şəhərlərində 10 yanvar – 9 fevral 1919-cu il tarixlərində mövcud olmuş Bremen Sovet Respublikası nəzərdə tutulur.

səh. 260. "Kazak-Kəndli Hökuməti": Terek Kazak-Kəndli Soveti tərəfindən seçilən Terek Respublikası Müvəqqəti Xalq Hökuməti nəzərdə tutulur.

**Qəzetələrdən**

səh. 260. "İngiltərə Fəhlə firqəsi": Leyboristlər Partiyası nəzərdə tutulur.

səh. 261. "Revel": indiki Tallin şəhəri.

səh. 262. "Berlin şəhərinin Baş komandanı…": söhbət 1919-cu ildə Berlinin hərbi komendantı olan Albert Klavundedən gedir.

**Zaqatala haqqında**

səh. 262. "Zaqafqaziya Cümhuriyyəti": Zaqafqaziya Demokratik Federativ Respublikası nəzərdə tutulur.

səh. 263. "Biz o vaxt İcraiyyə Komitəsinin sədri olduğumuzdan…": 1917-ci ilin martında Zaqatala qəzasında təsis edilən Zaqatala qəza İcraiyyə Komitəsi nəzərdə tutulur.

**Vükəla Şurasında**

səh. 266. "…qət edilmişdir": qəzetdə bu qətnamənin maddələri ərəb əlifbasında hərflərin ardıcıllığına uyğun olaraq "a", "b", "t" kimi işarələnmişdir.

**Bakı xəbərləri**

səh. 269. "…bir qoşun qitəsi…": qəzetdə "bir qoşun qalası" getmişdir.

**Teatro və musiqi**

səh. 273. "Mizrab": "Azərbaycan" qəzetində bu imza Üzeyir Hacıbəyliyə məxsusdur.

**İdarəyə məktub**

səh. 274. "Mantaşevlər, Mirzəyevlər, Terikiyev, Aramazlar, Kaspiyskilər...": Bakıda və Abşeronda fəaliyyət göstərən neft şirkətləri – "A. İ. Mantaşev və Ko", "Mirzəyev Qardaşları və Ko", "Aramazd neft sənayesi və ticarəti cəmiyyəti", "Kaspi ortaqlığı" nəzərdə tutulur. Bunların hamısı ermənilərə məxsus şirkətlər idi. "Terikiyev" deyərkən hansı şirkətin nəzərdə tutulduğunu müəyyənləşdirmək mümkün olmadı. Məktubda bir çox imla səhvləri olduğu nəzərə alınsa, güman etmək olar ki, "Ter-Akopov" (İ. N. Ter-Akopovun neft sənayesi və ticarəti cəmiyyəti) nəzərdə tutulmuşdur.